# HƏSİRİ BASMA




Dolayı gəl, dolayı, həsiri basma, dolan gəl,
Süpürmüşəm sarayı, həsiri basma, dolan gəl.
Qurtarmağa az qalıb hey,
Gözlərəm təzə ayı hey, həsiri basma, dolan gəl,
dolan gəl, dolan gəl.

Gəl saçını hörüm mən, həsiri basma, dolan gəl,
Bir-bir bəndin vurum mən, həsiri basma, dolan gəl.
Nə istəyirsən qanmıram hey,
Yovuq gəl bir, görüm mən hey, həsiri basma, dolan gəl,
dolan gəl, dolan gəl.